# Bəxtiyar Vahabzadə: “İnsan günahlarına girovdur...”



*Böyük sənətkarımız Bəxtiyar Vahabzadənin görüşünə tələsirəm. Xəyal məni qeyri-ixtiyari əlçatmaz, ünyetməz uşaqlıq çağlarıma qanadlandırır. O zaman şairin əsərləri hələ dərsliklərə salınmırdı. Orta məktəb müəllimlərim şer vurğunu olduğumu yaxşı bildiklərindən məni tez-tez imtahana çəkərdilər. Amma hər dəfə də gözlədiklərinin əksini görərdilər. Onların istədikləri kimi Füzulinin qəzəllərini, Vaqifin qoşmalarını, Ələsgərin təcnis və gəraylılarını söyləməz, yalnız bir şairdən söhbət açardım. Kitabları daim sinəm üstə qərar tutan Bəxtiyar Vahabzadədən. Onun şerlərini elə şövqlə söylərdim ki, istər-istəməz alqışlarla qarşılanardım. Təbii ki, o vaxt hələ Bəxtiyar poeziyasına bu qədər vurğunluğumun sirrini bilmirdim. Bu mənə yalnız uzun illərdən sonra aydın olacaqdı. Sən demə...*

*Sən demə bir vaxt kitabdakı şəklindən, radiodakı səsindən tanıdığım bu şairin şerlərinə pərəstiş elə onun özündən, səmimiyyətindən, sözü ilə əməlinin vəhdətindən, ləyaqətli yaşayışından, ömrünü böyük ideallara bağlamasından, övladı olduğu xalqın, üstündə gəzdiyi torpağın mənafeyini öz mənafeyindən üstün tutmasından, ədalətin təntənəsinə hər şeyi qurban verməsindən, daim ucalığa, kamilliyə can atmasından gəlirmiş...*

O zaman yuxuma da girməzdi ki, gün gələcək böyük şairin qonağı olacaq, ondan müsahibə götürəcəyəm. İndi budur, Bəxtiyar müəllimlə stol arxasında üz-üzə əyləşmişəm. Əməkdaşımız Rəşad Hacıyev münasib məqamları tutub şəklimizi lentə köçürür. Mən isə...

Mən isə bu müqəddəs ocaqda gördüyüm mehribanlıqdan bir az əvvəl keçirdiyim həyəcanlarıma ütü çəkir, dünəndən hazırladığım sualları bir kənara qoyur, tamam başqa sorğulara cavab almağa çalışıram:

**- Bəxtiyar müəllim, Sizin ədəbi fəaliyyətiniz barədə kifayət qədər söhbət açılıb - mətbuat səhifələrində yüzlərlə maraqlı, rəngarəng yazılar verilib, çoxlu sayda kitablar yazılıb, televiziya və radioda silsilə verilişlər gedib, dissertasiyalar edilib. Amma qəribədir ki, mənəvi dünyanıza nüfuz etmək istəyi nədənsə zəif olub. Bu cür məqalələr az qala yox dərəcəsindədir...**

- Doğru deyirsiniz. İstər respublika, istərsə də dünya mətbuatında yaradıcılığımla bağlı çox yazılar gedib. Ancaq bunların hər birində fəaliyyətimin müəyyən sahəsi işıqlandırılıb.



Mənim bu yaxınlarda bir kitabım çıxıb. Ona professor Nizami Cəfərov bir müqəddimə yazıb. Məsələ tərifdə deyil. Fərqi yoxdur. Amma o yaxşı açıb, gözəl təhlil aparıb. Xoşuma gəldi. Belə məqalələr çox azdır. Əvvəllər yazılanların Nizami Cəfərovun məqaləsi ilə fərqi müqayisəyəgəlməz dərəcədə çoxdur. Onlarda təəssüf ki, təkrarçılığa və ümumi sözlərə geniş yer ayrılıb...

**- Sizcə müasir yazıçının əsas vəzifəsi nədən ibarətdir?**

- İndi yazıçının cəmiyyətdəki mövqeyi və vəzifəsi ötən əsrlərdən daha vacib və məsuliyyətlidir. O, mənsub olduğu xalqın vicdanı və danışan dilidir. Bu vəzifəni boynuna götürə bilməyən yazıçının istedadına və yazdıqlarına inanmıram. Daha doğrusu, qəlbinin səsini yazıya köçürməyən yazıçı yazıçı deyil. Bir ölkənin, bir xalqın deyil, bütöv planetin taleyi təhlükə qarşısında durduğu bu zəmanədə yazıçı sözü atom və hidrogen bombalarından qüdrətli və kəsərli olmalıdır...

**- Sanki qayğıkeş, xeyirxah adamların sayı azalıb...**

- Mən elə deməzdim. Hər dövrdə var. Əlbəttə ki, o dövrün xeyirxahlığı indikindən fərqlənirdi. Bir vaxt Hacı Zeynalabdin Tağıyevdən gördüyümüzü indi kimdən gözləyə bilərik?! Var, e...varlılar var. Amma Hacı kimi öz alnının təri, əlinin əməyi ilə varlanan yoxdur. O varın əksəriyyətini rüşvətlə, əyri yolnan qazanırlar. Əyri olan adamdan nə gözləmək olar?! Ona görə də onlarda Hacının millətinə olan münasibətini görmürük.

**- Müharibə gedən məmləkətdə şair ömrü yaşamaq Sizin üçün nədir?!**

- Ağırdır...Çox ağırdır...Məsələn, oxuyuramelə şeylər var ki, adamın ürəyi ağrıyır. Fransanın qəbul etdiyi qərar nalayiq hərəkətdir. Bir soruşan yoxdur ki, ay Fransa, sən özün 8 il Əlcəzairin başına nə oyun açdın?! Əgər bu soyqırımdırsa, sən özün Türkiyədən on dəfə ağırını etmisən. Bu, ədalətsizlikdir. Dözmək olmur...

**- Ümumiyyətlə, ədalətsizlik çoxdur. Bir nəfəri öldürən qatil hesab olunur. Amma on minlərlə adamın qanına bais olan Köçəryan özünü fateh kimi aparır. Bütün dünya da bunu bilə-bilə susur...**

- Elədir...Tamamilə doğrudur. Bunun da səbəbi var. Onu siz də bilirsiniz, mən də...

**- Bəxtiyar müəllim, çoxmu oxuyursunuz?!..**

- Bəli! Mənim mütaliə etmədiyim günüm, saatım yoxdur. Amma Tolstoydan aldığım qidanı heç bir müasir yazıçıdan ala bilmirəm. Müasirlərdən ən çox sevdiyim Çingiz Aytmatovdur. Tolstoya və Azərbaycan klassiki Füzuliyə tez-tez qayıdıram. Çünki bu nəhənglər insan qəlbinin ən dərin qatlarına nüfuz etməyi bacarırlar. Bu nəhəngləri hər dəfə oxuyanda onlarda əvvəllər görmədiyim duyğuları görürəm...

**- Sizin üçün hansı üstündür - oxucu fikri, yoxsa tənqidçi sözü?**

- Doğrusu, buna birmənalı şəkildə cavab vermək qeyri-mümkündür. Çünki bəzən ağıllı oxucu professional tənqidçi səviyyəsində, bəzən də professional tənqidçi ən geri qalmış oxucu səviyyəsində fikir söyləyir. Bunun əksi də olur. Ona görə də bunu ümumiləşdirmək düzgün deyildir. İstər tənqidi fikir, istər tərif, istər professional tənqidçi, istərsə də adi oxucunun fikri, hər ikisinin ağıllısı və yazıçını inandıranı mənim üçün qiymətlidir...

**- Bəxtiyar Vahabzadə bu gün də poeziyadan həzz ala bilirmi?!**

- Əlbəttə! Amma mən cavanlığımda poeziyaya bu dərəcədə vurğun deyildim. Daha çox nəsr oxuyurdum...

**- Hər bir şairin əsərlərindən onun tərcümeyi-halının müəyyən məqamlarını oxumaq olur. Amma Bəxtiyar ömrünə baş vurmaq üçün bu, çox azdır. Bu mənada, oxucularımızı bir sual maraqlandırır: "Memuar yazmaq barədə heç fikirləşirsinizmi?!.."**

- Fikirləşmişəm. Çox fikirləşmişəm. Hələ uşaqlıq dövrümü yazmışam da. Belə əsərlərin

əhəmiyyəti ondadır ki, yalnız yazıçı ömrünü deyil, həm də onun dövrünü oxuyur, məlumat alırıq.

Sözünüzə qüvvət, bu günlərdə Çingiz Aytmatovun "Cocuqluğum" əsərini oxudum. Bilirsiniz ki, Çingiz rus dilində yazır. O əsəri almancaya, almancadan da türk dilinə çeviriblər. Çox böyük əsərdir. Orada tərcümeyi-halını danışanda mən bunun bir daha şahidi oldum. Gördüm ki, "Əsrə bərabər gün" romanındakı Sabitcan elə bu özüdür.

**- Taleyin verdiyi töhfədən - şair ömründən razısınızmı?!**

- Narazılığım yoxdur. Heç bir narazılığım yoxdur. Allah-taala mənə böyük, ya kiçik, az, ya çox istedad verdi. Onu mən cilalandırdım. Oxumaqla...müşahidələrimlə...Amma nə deyim?! Narazılığım yoxdur. Ailəmdən də, övladlarımdan da, mənə olan münasibətdən də...

**- Əlinizə ilk dəfə qələm alanda ağlınıza gəlirdimi ki, bu qədər şöhrət qazanacaq, məşhur olacaqsınız?**

- Onu bilmək olmazdı. Əlbəttə, mən özümə həmişə tələbkar yanaşmışam, çalışmışam ki, yaxşı şair olum. İndi ola bildim, bilmədim - o sizin işinizdir, qiymət verin! Qoy oxucular desinlər.

**- Bəxtiyar müəllim taleyə, bəxtə inanırmı?!**

- Taleyə inanıram...Tam inanıram...O kişi nə yazıb - odur. Amma əlini belinə qoyub oturmaq da olmaz...

**- Həyatınızda öyrənilsi, qürrələnəsi cəhətlər çoxdur. Təəssüfləndiyiniz məqamlar necə, olubmu?!**

- Olur...Olur, əlbəttə! Mən həmişə şerlərimdə yazmışam. Büdrəmələrim də olub, uğurlarım da.

**- Təbii ki, bu nöqsanlardan heç kəs xali deyil...**

- Elədir. Amma onları görmək lazımdır. Əksteqdirdə uğura çatmarıq. Orta məktəbdə bütün fənlərdən yaxşı oxuyurdum. Təkcə riyaziyyatdan pis qiymətlər alırdım. Bir yalan uydurmuşdum ki, riyaziyyat müəllimi mənimlə düşübdür. Və çox qəribədir ki, özümü də bu yalana inandırmışdım, elə bilirdim ki, həqiqətən də belədir. Bir gün həmin müəllim məni çağırıb dedi ki, bala, sən niyə bütün fənlərdən yaxşı oxuyursan, riyaziyyatdan - pis?! Axşamlar, çəkinmə, bizə gəl, səninlə əlavə məşğul olacağam. O müəllim indi həyatda yoxdur. Amma mən o müəllimdən hələ də utanıram. Elə bilirəm ki, zəif şerlərim də mənim haçansa uydurduğum yalandır. Odur ki, onların heç birini yeni nəşrə salmıram...

**- Müasir ədəbiyyatın inkişafı üçün nəyi vacib hesab edirsiniz?!**

- Hər şeydən öncə kökə qayıtmağın, ənənədən uzaqlaşmamağın, dədə-baba irsinə hörmət etməyin zəruri olduğunu düşünürəm...

**- Aşağıdakı şeri düz 25 il əvvəl yazmısınız. Bu misralardakı sevgi odu yenə də ürəyinizdə yaşayırmı?**

*Sevgi yaş tanımır...Qəlbini yandır!*
*Yanaraq yaşasan yaş düşməz yada.*



*Sevən doxsanında hələ cavandır,*
*Sevməyən qocadır otuzunda da.*

- Əlbəttə! Amma burada bir balaca izah da lazımdır. Əsl böyük sevgi ömrün sonuna qədər davam edir, lakin təzahür formasını dəyişir. "Nağılım gəlsin" şerimdə bu məsələyə belə toxunmuşam:

*Sevgidən savayı hər şey ağ yalan,*
*Onu itirdinsə dünyan dağıldı.*
*Məhəbbət həmişə təptəzə qalan*
*Köhnə rəvayətdi, köhnə nağıldı.*

*Həyat cəhənnəmə dönər ürəksiz,*
*Yaşayıb sevməsə insan insanı.*
*Hamımız olmuşuq, oluruq şəksiz,*
*Bu köhnə nağılın baş qəhrəmanı.*

Sevgi nağılının baş qəhrəmanı olan adamların bu böyük hissə münasibəti başqa-başqa olduğu üçün onu hər kəs öz ölçüsü ilə ölçür. Axı, hər kəs özü kimi sevir.

**- Ömrünüzün ötən çağlarını xatırlayırsınızmı?**

- İnsan günahlarına girovdur. Ömrünü səhvlər, günahlar müşayiət edir. Gənclik illərimi xatırladıqca içimdə buraxdığım səhvlərin, elədiyim günahların hesabını çəkirəm. O zaman əllərim istər-istəməz göyə açılır, ulu Tanrıdan günahlarımın, səhvlərimin əfv olunmasını təmənna edirəm...

**- Bu günahlar uşaqlıq illərində daha çox baş verir. Bununla belə uşaqlıq hər birimizin ömrünün qızıl çağlarıdır. Xəyalən o illərə qayıtsaydınız oradan özünüzlə hansı xatirəni götürərdiniz?!..**

- Vallah, onu demək bir az çətindir. Eh!!! Amma o günləri həmişə xatırlayıram. Adam yaşlaşdıqca uşaqlığını göz önünə gətirməyə daha tez-tez ehtiyac duyur.

Bu yay mən Şəkiyə getmişdim. Mənim nə vaxtsa məktəbə getdiyim bir yol var. Bu barədə şer də yazmışam: "Məktəb yolları".

Bizim evimiz Şəkinin Yuxarıbaş məhəlləsindədir. Dağın lap döşüdür. Həmişə o dağlar qarlı olur. Mən evdən çıxdım. Təxminən 1 km piyada məktəbə tərəf yol gəldim. İnanırsınızmı, o yolu gələndə kövrəlib hönkürdüm. Uşaqlığımı axtardım o yollarda. Amma hanı?! Böyük ağrıdır. O hamımızda var. Ömür keçir...gün keçir. Sən bir də dönməyəcəksən. O günləri təkrar yaşamayacaqsan...

**- Sizin duzlu, mənalı söhbətlərinizdən doymaq olmur. Amma başqa qonaqlarınız da var. Bayaqdan gözləyirlər. Odur ki, istəsək də - istəməsək də ayrılmalı, Sizə son sualımızı verməliyik. Allahdan nə arzulayırsınız?!**

- Onu arzulayıram ki, Allah məni pis işlərdən qorusun! Vicdanımın səsini daha qüvvətli etsin! İndi mənim günah işlədən vaxtım deyil. Amma kim deyir ki, cavanlığımda günah işlətməmişəm. Adam gəldiyi yola baxanda keçmişlərə peşman olur. Allah bundan sonrakı peşmançılıqdan qorusun...

**Yaşar VƏLİYEV**

*Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci ildə Şəkidə anadan olmuşdur. 1934-cü ildə ailəsi ilə bərabər Bakıya köçmüşdür.*

*1942-ci ildə orta məktəbi, 1947-ci ildə isə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.*

*1951-ci ildə "S.Vurğunun lirikası" mövzusunda namizədlik, 1964-cü ildə "S.Vurğunun həyat və yaradıcılığı" mövzusunda monoqrafiyasını müdafiə edib filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.*

*1945-ci ildən Yazıçılar Birliyinin üzvüdür.40 ildən artıq BDU-da dərs demişdir. 1980-ci ildən AMEA-nın müxbir üzvü seçilmişdir.*

*70-dən artıq şer kitabının, 2 monoqrafiyanın, 11 elmi - publisistik kitabın və yüzlərlə məqalənin müəllifidir. Milli Dram Teatrında onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulmuşdur. O, tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir.*

*1974-cü ildə əməkdar incəsənət xadimi, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatı laureatı adlarına layiq görülmüşdür. 1985-ci ildə ona "Xalq şairi" adı verilmiş, 1995-ci ildə isə Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilmişdir.5 dəfə Azərbaycan Ali Sovetinə millət vəkili seçilmişdir.*